(Əvvəli 6-cı səhifədə)

Azəroğlunun əsərində isə kədər, həsrət, qürur, şərəf kimi hisslər birlikdə addımlayır. Səttarxanın mənəvi varlığını hiss edərək vətənimə sadiq əsgər kimi əmrinə müntəzir dayanan şair heç vaxt sınaqdan namərd çıxmayan Azərbaycan oğludur. Səttarxan və digər şəhidlərin qanı onun damarından axır. Səttarxan Vətənimizə şan, şöhrət gətirdi, qüdrətimizi artırdı. Azərbaycan xalqı bütün adlı qəhrəmanlar kimi onu ürəklərdə yaşadır. Təbrizdə çox igidlər at oynadıb, çox qəhrəmanlar vuruşub, ancaq Səttarxan kimi bu qədər ucalmamışdır, zaman onun kimi qəhrəmanları az-az yetirir. O, özünü elin gözündə var olduğu qədər böyütdü. Xalqımız, tariximiz yaşadıqca Səttarxan da yaşayacaq, Babək, Cavanşir kimi. Xalqımız daima Koroğlu tək Misri qılınclara, ata arxa, kömək kimi baxıb. Cənubi Azərbaycanın dağlarında at üstündə, beli qılınclı çox igidlər vuruşub. Səttarxanı isə dünya tanıyır.

Müsəlmanı da, xristianı da onu igid kimi, xalqını sevən bir qəhrəman kimi təqdir edir.

*Təbrizin qoynundan çox igid çıxıb*
*Fəqət ucalmamış Səttarxan kimi.*
*Çox az-az qəhrəman yetirir zaman*
*Bu el böyütdüyü qəhrəman kimi.*

B.Azəroğlu xalq qəhrəmanının heyranıdır, hətta onu canlı olaraq görür. Onun at üstündə, süngü qabağında etdiklərini səngərdə də, qələmi ilə də etməyə hazırdır. Xalqına sevgisi, məhəbbəti məlum olan şair Səttarxanı ən əziz, ən böyük bir insan kimi qiymətləndirir:

***İgidlərin qanı qanımızdadır.***
***Nə düşmən, nə ölüm qorxuzmaz bizi***
***Səttarxan hər zaman yanımızdadır.***

S.C.Pişəvərinin başçılığı ilə milli-azadlıq hərəkatının qalib gəlməsi çox qürurverici idi. 1945-ci ilin 12 dekabrında (21 Azər) Milli Hökümət yarandı. Mədəniyyət, aqrar, sənaye

# XALQ ŞAİRİ
## BALAŞ AZƏROĞLU VƏ "21 AZƏR HƏRƏKATI"

sahələrində xeyli işlər görüldü, Azərbaycan dili dövlət dili kimi qəbul edildi. Həmin dövrdə "Şairlər məclisi" öz fəaliyyətində artıq yeni bir dönəm yaşamağa başladı. B.Azəroğlu yazırdı:

***Dünya həsrət çəkən kömək bizdədir.***
***İranın elləri bizə göz dikib***
***Azadlıq günəşi demək bizdədir.***
***Bunu şərqlilər də bilmişdir artıq***
***Bizdən keçəcəkdir Şərqdə azadlıq.***
*(Təbriz, 1946)*

Çeşməzar "Azərbaycan Demokrat Partiyasının yaranması və fəaliyyəti" əsərində Azərbaycan Demokratik hərəkatın Yaxın və Orta Şərq xalqlarının imperializm əleyhinə mübarizəsinin qüvvətlənməsində əhəmiyyətli rol oynadığını göstərirdi.

Azərbaycan Milli Hökuməti 1946-cı il dekabrın 20-də ləğv olundu. Sovet hökuməti aparıcı dövlətlərin təsiri ilə qoşunlarını Cənubdan çıxartdı və Azərbaycan Milli Hökuməti köməksiz vəziyyətdə, demək olar ki, taleyin ümidinə qaldı.

B.Azəroğlu – üzərindən qan, qovğa, ağır mübarizə keçmiş xalq şairi ümidini yenə sabaha dikdi. Düşmən Təbrizin cəlalını dağıtdı, şəhəri fırtınalı dənizə çevirdi. Ancaq şair gələcək zamandan bu məhkumluq zəncirinin qırılmasını gözləyir.

***Azəroğlun qorxutmadı nə sürgün, nə dar,***
***Baxışlarda qəzəb vardır, ürəklərdə kin.***
***Xiyabandan qorxa-qorxa keçir ağalar,***
***Onlar bilir bu ellərin ürəyindəkin.***
***Onlar bilir azərilər dözməz heç zaman,***
***Bu məhkumluq zəncirini qırar bir səhər.***
*(Yalta, 1950).*

## ƏDƏBİYYAT:


1. Balaş Azəroğlu. Seçilmiş əsərləri. Bakı, 2004
2. Mədinə Gülgün. Seçilmiş əsərləri. Bakı, 2004
3. Ə.Rəhimli. S.C.Pişəvəri. Bakı, 2009
4. "Respublika" qəzeti. 11 may 2011-ci il
5. Sabir Əmirov. Azəroğlu. Bakı.
6. Cəfər Xəndan. Seçilmiş əsərləri. II cild. Bakı, 2010
7. Xalq şairi Balaş Azəroğlu və "21 Azər hərəkatı".